# 9 noyabr Dövlət Bayrağı Günüdür


# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

№45 (1040) 8-14 noyabr 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır


# İlham Əliyev: "Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, əsrlər boyu belə olub, bu gün də belədir, sabah da belə olacaq"




Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olmuşlar. Həmin gün Prezident İlham Əliyev Ağdam rayonunda əsaslı şəkildə yenidən qurulan Quzanlı - İmamqulubəyli - Orta Qərvənd - Xındırıstan avtomobil yolunun açılışında iştirak edib.

* * *

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

Layihəni icra etmiş "Azəraqrartikinti" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev dövlətimizin başçısına və birinci xanıma məlumat vermişdir ki, Ağdam Muğam Mərkəzinin inşasına 2016-cı ilin oktyabrında başlanılıb. İnşaat işləri bu ilin sentyabrında başa çatdırılıb.

Muğam Mərkəzi ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayon ictimaiyyətinin nümayəndələri və Ağdam rayonundan olan incəsənət xadimləri ilə görüşmüş, görüşdə çıxış etmişlər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 5-də "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Ağdam filialının açılışında iştirak ediblər.

Son illər Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi sənət növlərindən biri olan xalçaçılığa diqqət artıb. Bu sahənin inkişafına xüsusi diqqət yetirən Prezident İlham Əliyevin qayğısı sayəsində artıq Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı və Lənkəranda xalça müəssisələri istifadəyə verilib. Ağdamla bərabər, Ağstafa, Qazax, Qəbələ və Tovuzdakı müəssisələr isə istifadəyə hazırdır.

Bu müəssisələri materialla təmin etmək üçün Sumqayıt Kimya Sənaye Parkında yunəyirici-boyaq fabrikinın, Naxçıvan şəhərində, Qobustan, Şabran, Bərdə və Sabirabad rayonlarında 5 regional yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin inşası davam etdirilir. Artıq Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Naxçıvan şəhərində, Qobustan, Şabran, Sabunçu, Abşeron, Kürdəmir, Biləsuvar, Goranboy və Tərtər rayonlarında xalça emalatxanalarının tikintisi və təchizatı işlərinə başlanıb. Bundan başqa, İsmayıllı rayonunda daha bir xalça emalatxanası tikilir. Dövlətimizin başçısı bu emalatxananın tikintisi, avadanlıq və dəzgahlarla təchizatı, infrastrukturunun yaradılması üçün 2018-ci il dövlət büdcəsində nəzərdə tutulan Prezidentin ehtiyat fondundan vəsait ayrılması barədə Sərəncam da imzalayıb. 2019-cu ildə əlavə olaraq, 10 şəhər və rayonda bu cür müəssisələrin tikintisi nəzərdə tutulub. Artıq istifadəyə tam hazır olan "Azərxalça" ASC-nin Ağdam filialı da bu sırada mühüm yer tutur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva XIX əsrdə, eləcə də XX əsrin əvvəllərində Qarabağın müxtəlif bölgələrində toxunan nadir xalçalara baxmışlar.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov bildirmişdir ki, filialın binasının ümumi sahəsi 1250 kvadratmetrdir. Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Heydər Əliyev prospektində yerləşən binada tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Burada 150 toxucu və 14 inzibati-təsərrüfat işçisinin çalışması nəzərdə tutulub. İlkin mərhələdə artıq 90 nəfər işə qəbul olunub.Dövlətimizin başçısı və birinci xanım xalçaçılarla görüşüb söhbət etmişlər.

* * *

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam rayonunda səfərdə olarkən yolüstü Ağcabədi rayonunun Hindarx qəsəbəsində Əsmər Hüseynovanın pambıq sahəsi ilə tanış olublar. Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov və pambıqçı Əsmər Hüseynova təsərrüfatda görülən işlər barədə Prezident İlham Əliyevə məlumat vermişlər.

* * *

Noyabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Qarabağ Atçılıq Kompleksinin açılışında iştirak ediblər.

Kənd təsərrüfatı naziri İnam Kərimov ölkəmizdə atçılığın inkişafı istiqamətində görülən işlər, kompleksdə yaradılan şərait barədə məlumat vermişdir. 2007-ci ildə "Atçılıq haqqında" Qanun qəbul olunub. Bu qanunun tətbiqi ilə əlaqədar Prezident İlham Əliyev tərəfindən müvafiq Fərman imzalanıb, atçılığın inkişafı üzrə Proqram təsdiqlənib. Prezident İlham Əliyevin "Azərbaycanda Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında" 2014-cü il 19 noyabr və "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" 2015-ci il 21 avqust tarixli sərəncamları isə Qarabağ atının genefondunun qorunmasında, tarixi şöhrətinin özünə qaytarılmasında mühüm əhəmiyyətə malikdir. Dövlətimizin başçısı 2017-ci il fevralın 22-də isə bu sahə ilə bağlı daha bir Sərəncam imzaladı. Sərəncama əsasən Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılmasına şərait yaradılması istiqamətində həyata keçirilən tədbirlərin başa çatdırılması və Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin atçılıq kompleksinin tikintisi üçün Prezidentin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 2 milyon manat vəsait ayrılıb. Artıq Qarabağ Atçılıq Kompleksi istifadəyə tam hazırdır.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qapalı manejdə yaradılan şəraitlə tanış olmuşlar.

Qarabağ Atçılıq Kompleksinin direktoru Maarif Hüseynov məlumat vermişdir ki, vaxtilə Qarabağ xanları Pənah xanın, İbrahim xanın, Mehdiqulu xanın, Cəfərqulu xanın, Xurşidbanu Natəvanın və xan zümrəsinə daxil olan digər sülalələrin nümayəndələrinə məxsus zavod və tövlələrdə klassik zavod atçılığı səviyyəsində damazlıq işləri aparılaraq cinsin tipik nümunələrinin yetişdirildiyini görmək mümkündür. Hazırda kompleksdə Qarabağ cinsindən olan 200 at saxlanılır, 28 mütəxəssis çalışır.

Dövlətimizin başçısı və birinci xanım kompleksin açıq manejində Dövlət Sərhəd Xidmətinin Atçılıq Mərkəzinin "Süvarilər" qrupunun nümunəvi çıxışlarına da baxmışlar.

2013-cü ilin dekabrında Bakıda keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında Qarabağ atı üzərində çövkən oyunu UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına salınıb. Sonra Qarabağ atlarından bəhs edən "Sarılar - Qarabağ atının izi ilə" adlı sənədli filmi çəkilib. Atçılıq və onun tarixi üzrə ixtisaslaşmış fransız yazıçı Jan-Lui Quro "Qarabağ atları" adlı kitab yazaraq nəşr etdirib. London yaxınlığındakı Vindzor qəsrində İngiltərə Kraliçası II Elizabetin 90 illik yubileyi şərəfinə keçirilən at şousunda Qarabağ atlarının möhtəşəm çıxışı böyük maraq doğurub. Bir sözlə, kompleksdə yaradılan şərait deməyə əsas verir ki, Azərbaycanın milli sərvəti olan Qarabağ atları hazırda öz keçmiş şöhrətinin qayıdışı dövrünü yaşayır.


PASHA Bank

Sizi 9 noyabr – Dövlət Bayrağı günü münasibətilə təbrik edir!

# Milli Məclisin komitələrində 2019-cu il üçün dövlət büdcəsi müzakirə edilir

*Noyabrın 5-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə, Təbii ehtiyatlar, energetika və ekologiya, Aqrar siyasət, İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2019-cu il üçün dövlət büdcəsi haqqında" qanun layihəsi müzakirəyə çıxarıldı.*



**Nailiyyətlərimizin əldə olunmasında düşünülmüş iqtisadi siyasət durur**

İclası açan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə Azərbaycanda uğurlu islahatların davam etdirildiyini, iqtisadi fəaliyyətin son 15 ildəki nəticələrinin kifayət qədər möhtəşəm rəqəmlərlə xarakterizə olunduğunu diqqətə çatdırdı.

Bildirdi ki, Azərbaycan iqtisadiyyatı özünün yeni inkişaf mərhələsinə keçir, qloballaşan dünyada, risklərin artdığı bir şəraitdə öz davamlılığını nümayiş etdirir. Heç şübhəsiz, bu nailiyyətlərin əldə olunmasının əsasında Prezident İlham Əliyev tərəfindən aparılan düşünülmüş iqtisadi siyasət, ölkənin milli maraqlarına cavab verən iqtisadi inkişaf strategiyası dayanır. Dövlət büdcəsi bütün bu nailiyyətlərin əldə olunmasında mühüm bir vasitədir. Büdcənin hazırlanmasında iştirak edən strukturlar bu məsələyə kifayət qədər məsuliyyətlə yanaşırlar. Məhz belə yanaşmanın nəticəsidir ki, Azərbaycanın dövlət büdcəsinin göstəriciləri ildən-ilə yaxşılaşır.

**İcbari tibbi sığorta sisteminin ölkə üzrə tətbiqinə 2020-ci ildən başlanması gözlənilir**

İclasda çıxış edən maliyyə naziri Samir Şərifov bildirdi ki, Azərbaycan Respublikasının 2019-cu il üçün icmal və dövlət büdcələrinin layihələri "Büdcə sistemi haqqında" Qanundan irəli gələn tələbləri, Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf prioritetləri və sosial iqtisadi siyasət hədəfləri, qlobal iqtisadiyyatda gedən proseslərin icmal və dövlət büdcələrinin əsas parametrlərinə ehtimal olunan təsirləri nəzərə alınmaqla tərtib olunub. Bu amillərlə yanaşı, proqnozlaşdırma zamanı İqtisadiyyat Nazirliyinin hazırladığı 2019-2022-ci illər üzrə ölkənin makroiqtisadi proqnoz göstəriciləri və gözlənilən iqtisadi meyllər, o cümlədən 2019-cu ildə Ümumi Daxili Məhsulun 3,6 faizlik, qeyri-neft sektorunda isə 3,9 faizlik real artım sürəti, dövlət büdcəsi və dövlət neft fondunun gəlirlərinin hesablanmasında isə bir barel xam neftin satış qiyməti 60 ABŞ dolları səviyyəsində qəbul edilib.

Nazir əlavə etdi ki, dünya əmtəə bazarlarında neftin qiyməti ilə bağlı müşahidə olunan müəyyən sabitləşmə və artım proseslərinin ölkə iqtisadiyyatına müsbət təsiri ehtimal olunsa da, regiondakı iqtisadi təlatümlərin ölkə iqtisadiyyatına potensial mənfi təsirləri nəzərdən qaçırılmamalıdır. Belə ki, qonşu ölkələr və əsas ticarət tərəfdaşlarımızın valyutalarının ucuzlaşması Azərbaycan manatının məzənnəsinin dəyərlənməsinə təzyiqləri artırır. Bu isə bir tərəfdən yerli istehsalçıların ixrac rəqabətliliyinin azalması, digər tərəfdən isə idxalın artımı risklərini aktuallaşdırır.

Nazir qeyd etdi ki, yuxarıda sadalanan xarici mənşəli makro iqtisadi təhdidlərin ölkə iqtisadiyyatına sirayət etməsinin qarşısının alınması 2019-cu ildə həyata keçiriləcək monetar və fiskal siyasətin əsas prioritetlərindən biri kimi gündəlikdə durmaqdadır. Bununla əlaqədar büdcənin sabitliyi və orta müddətli dayanıqlılığının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir.

Nazir diqqətə çatdırdı ki, 2019-cu ilin dövlət büdcəsinin tərtibindən başlayaraq növbəti illərin icmal və dövlət büdcələri yeni qəbul edilmiş büdcə qaydasına uyğun olaraq hazırlanacaq. Qaydanın tətbiqi neft qiymətlərinin qalxması və enməsi zamanı büdcənin daha dayanıqlı olmasını hədəfləyir.

İcmal büdcənin xərcləri 27 milyard 372 milyon manat, dövlət büdcəsinin xərcləri isə 24 milyard 780 milyon manatdır. Dövlət Neft Fondundan transfert isə 11 milyard 364 milyon manat müəyyən edilir.

Nazir qeyd etdi ki, gələn il icbari tibbi sığorta sisteminin bütün ölkə üzrə tətbiqi məqsədilə yekun hazırlıq işləri həyata keçiriləcək. Sistemin bütün ölkə üzrə tətbiqinə isə 2020-ci ildən başlanması gözlənilir.

2019-cu ildə icbari tibbi sığortaya 224 milyon manat məbləğində vəsaitin ayrılması nəzərdə tutulub. Eyni zamanda, icbari tibbi sığortanın həyata keçirilməsi üçün müəyyən vəsaitlərin xüsusi fondda toplanılması məsələsinə baxılacaq.

**Azərbaycan "Doing Business-2019" hesabatında ən islahatçı ölkələr arasında ilk onluqda yer alıb**

Bu fikri iclasda çıxış edən iqtisadiyyat nazirinin müavini Şirzad Abdullayevbildirdi. O, diqqətə çatdırdı ki, Azərbaycanda investisiyaların təşviqi mexanizmi çərçivəsində sahibkarlara bugünədək 2,7 milyard manat ayrılıb. Bu layihələrin icrası 21 mindən çox yeni iş yeri açmağa imkan verəcək. İnvestisiyaların təşviqi sertifikatı almış 200-ə yaxın müəssisə artıq açılıb, digərləri isə ilin sonunadək işə düşəcək.

Nazir müavini əlavə edib ki, 2019-cu ildə əsas kapitala investisiyaların həcmi 17,9 milyard manat, o cümlədən xarici investisiya 7,5 milyard, daxili investisiya 10,4 milyard manat həcmində proqnozlaşdırılır.

Ş.Abdullayevin sözlərinə görə, ölkəmizdə 6 aqropark yaradılıb, 30 rayonda isə aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması ilə bağlı iş aparılır.

Bununla bağlı investisiyaların həcmi 1,4 milyard manat təşkil edir.İlin sonunadək Azərbaycanda daha 13 aqropark yaradılacaq.

**Bərabər vergi yükünün təmin edilməsi qarşımızda duran əsas vəzifədir**

İclasda çıxış edən vergilər naziri Mikayıl Cabbarov bildirdi ki, qarşıda dayanan əsas məqsəd iqtisadi artımın təmin edilməsi, sahibkarlığın inkişafının dəstəklənməsi, özəl investisiyaların səmərəli təşviqidir.Bu məqsədlə bərabər vergi yükünün təmin edilməsi qarşımızda duran əsas vəzifə kimi qəbul edilib.Qeyri-neft sektorunda nəzərdə tutulan vergi güzəştlərinin islahatı da buna yönəlib.Əmək bazarının və əmək haqqı sisteminin şəffaflaşdırılması üçün güclü vergi stimullarının yaradılması nəzərdə tutulur.

Nazir həmçinin qeyd etdi ki, vergidən yayınma miqyasının azaldılması üçün mal dövriyyəsinin sənədləşdirilməsi, aksizli malların dövriyyəsinə nəzarətin gücləndirilməsi kimi istiqamətlər müəyyənləşib.

Vergitutma rejiminin təkmilləşdirilməsi və digər tədbirlər vasitəsilə vergitutma bazasının genişləndirilməsi, vergi ödənişlərinin optimallaşdırılması və iqtisadi səmərəsinin yüksəldilməsi, ayrı-ayrı sahələrin iqtisadi inkişafını təmin etmək üçün güzəştlərin tətbiqi kimi istiqamətlər müəyyən olunub.

Sonra Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov bildirdi ki, 2019-cu ildə Dövlət Neft Fondunun büdcəsinin 4 milyard 214,9 milyon manat profisitlə icra ediləcəyi gözlənilir. Fondun gələn il üçün gəlirləri 15 milyard 579,2 milyon manat, xərcləri isə 11 milyard 364,3 milyon manat nəzərdə tutulur. Azərbaycanın payına düşən mənfəət neftinin və qazının satışından əldə edilən xalis gəlirlər 13,218 milyard manat təşkil edəcək.Fondun vəsaitlərinin idarə olunmasından isə 1,571 milyard manat mənfəət əldə edilməsi proqnozlaşdırılır.

**Gələn ilin dövlət büdcəsi vergi gəlirlərinin azaldılması, qeyri-vergi gəlirlərinin artımının proqnozlaşdırılması ilə xarakterizə olunur**

Çıxış edən Hesablama Palatasının sədri Vüqar Gülməmmədov diqqətə çatdırdı ki, 2019-cu ilin dövlət büdcəsinin gəlirləri 2018-ci illə müqayisədə 3,5 faiz çox olmaqla 22,9 milyard manat məbləğində proqnozlaşdırılır.

Gələn il cari illə müqayisədə 11 tədiyyə növü üzrə artım, 5 tədiyyə növü üzrə isə azalma gözlənilir. 2019-cu ilin dövlət büdcəsi cari illə müqayisədə vergi gəlirlərinin azaldılması, qeyri-vergi gəlirlərinin artımının proqnozlaşdırılması ilə xarakterizə olunur. Qeyri-vergi gəlirlərinin artırılmasının əsas mənbələri kimi Dövlət Neft Fondundan transfertin 398,3 milyon manat, büdcə təşkilatlarının ödənişli xidmətindən daxilolmalar 127,6 milyon manat və vergi qanunvericiliyinin pozulmasına görə tətbiq edilən maliyyə sanksiyaları çıxış edir. Ümumiyyətlə, neftin baza qiymətinin növbəti ildə 9,1 faiz artaraq 60 dollar səviyyəsində qəbul olunması dövlət büdcəsinin neft gəlirlərinin artırılmasına əhəmiyyətli təsir göstərməyib. Gələn il Dövlət Neft Fondunun dövlət büdcəsinə transfertinin məbləği 11 milyard 364,3 milyon manat məbləğində, dövlət büdcəsinin gəlirlərində payı 49,5 faiz səviyyəsindədir.

Vüqar Gülməmmədovun sözlərinə görə, növbəti ildə Dövlət Neft Fondunun investisiyayönümlü xərclərinin dövlət büdcəsi vasitəsilə icra edilməsi nəzərdə tutulur. Gələn il büdcə gəlirlərinin 15,1 faizi Dövlət Gömrük Komitəsinin payı olaraq proqnozlaşdırılıb və bu qurum vasitəsilə 2018-ci illə müqayisədə 8,2 faiz çox olmaqla 3,5 milyard manat vəsait təmin ediləcək.

**Yaşa görə əmək pensiyasının orta aylıq məbləği 272 manata çatacaq**

İclasda çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirdi ki, Dövlət Sosial Müdafiə Fondunun 2019-cu ilin üçün büdcə gəlirləri 3 milyard 928 milyon manat məbləğində proqnozlaşdırılır. Bu vəsaitin 97 faizi əhaliyə yönəldiləcək.Nəticədə də ödəniləcək əmək pensiyalarının məcburi dövlət sığorta haqları hesabına sosial müavinətlərin məbləği artacaq.

Nazir qeyd etdi ki, gələn il üzrə Azərbaycanda orta aylıq əmək pensiyası 241 manat təşkil edəcək: Yaşa görə əmək pensiyasının orta aylıq məbləği 272 manata çatacaq. Bu isə həyata keçirilən siyasətin ana məqsədidir.Digər tərəfdən, İşsizlikdən Sığorta Fondunun büdcəsi 83 milyon 451 min manat məbləğində proqnozlaşdırılır.Bu qiymətləndirmə cari ilin göstəricilərindən 4.7 faiz artıq olacaq.

Sahil Babayev əlavə etdi ki, 2019-cu il ərzində Azərbaycanda məşğulluq tədbirlərinin təxminən 250 min nəfəri əhatə etməsi gözlənilir. Sosial müdafiə, sosial təminat tədbirlərinin 2,1 min nəfəri əhatə etməsi gözlənilir. Gələn il pensiya alanların sayı təxminən 1 milyon 294 min nəfər, sosial müavinət və təqaüd alanların sayı isə 571 min nəfər olaraq proqnozlaşdırılır.

İclasda çıxış edən Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov, sədr müavini Valeh Ələsgərov, Milli Məclisin komitə sədri Eldar İbrahimov, deputatlardan Vahid Əhmədov, Zahid Oruc, Əli Məsimli, Xanhüseyn Kazımlı, Dövlət Gömrük Komitəsinin idarə rəisi Mirqasım Vahabov 2019-cu ilin dövlət büdcəsi zərfi barədə fikirlərini bildirdilər, qeyd və təkliflərini verdilər.

Maliyyə naziri Samir Şərifov iclasda qaldırılan məsələlərə münasibət bildirdikdən sonra "Azərbaycan Respublikasının 2019-cu il üçün dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olundu.

**Milli Məclisin Mətbuat xidməti**

# Gələn ilin dövlət büdcəsindən "ASAN xidmət"ə 28 milyon manat ayrılacaq

"Prezident İlham Əliyev tərəfindən ölkə əhalisinə xidmətlərin dövlət orqanları vasitəsilə yüksək səviyyədə göstərilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq növbəti ilin dövlət büdcəsindən "ASAN xidmət"in fəaliyyətinin təşkili və onun əhatə dairəsinin genişləndirilməsi üçün 28 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu da cari illə müqayisədə 15 faiz çoxdur".

Bu sözləri maliyyə naziri Samir Şərifov dövlət büdcəsinin Milli Məclisin komitələrinin birgə iclasında müzakirəsi zamanı deyib.

Nazir qeyd edib ki, dövlət büdcəsi layihəsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin məhkəmənin qərarlarının ölkədaxili icrası ilə bağlı xərclər üçün də müvafiq vəsaitlər nəzərdə tutulub.

Məhkəmə prosesləri ilə bağlı aztəminatlı şəxslərə cinayət işləri üzrə hüquqi yardımın göstərilməsi, məhkəmə qərarlarının icrası və digər sosial-iqtisadi tədbirlərin maliyyə təminatı ilə bağlı xərclər üçün də 15 milyon manat vəsaitin ayrılması planlaşdırılır. Həmçinin, insan hüquqları üzrə müvəkkilin maliyyə təminatı üçün dövlət büdcəsindən 2,3 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub, bu da cari illə müqayisədə 18,7 faiz çoxdur.



# Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyi yaradılır

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondunun və "Yüksək Texnologiyalar Parkı" MMC-nin əsasında nazirliyin tabeliyində İnnovasiyalar Agentliyi yaradılır.

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 6 noyabr tarixli "Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyində İnnovasiyalar Agentliyinin yaradılması haqqında"

AZƏRBAYCAN RESPUBLİKASI NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİ

Fərmanında bildirilir.

Fərmanda qeyd edilib ki, agentlik yerli sahibkarlıq subyektlərinə müasir texnologiyaların və texnoloji həllərin əldə olunmasında yardım göstərən və onların transferini təşkil edən, innovasiyayönümlü elmi tədqiqatları dəstəkləyən, innovativ layihələri təşviq edən, onları qrant, güzəştli kredit və nizamnamə kapitalına sərmayə vasitəsilə maliyyələşdirən, innovasiya təşəbbüskarlığını təbliğ edən publik hüquqi şəxsdir.

Agentlik "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı günədək nazirliyin tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu və "Yüksək Texnologiyalar Parkı" MMC öz fəaliyyətlərini davam etdirəcək.

# Mərkəzi Bankın qısamüddətli notlarının yerləşdirilməsi üzrə hərrac keçirilir




Bakı Fond Birjasında (BFB) Azərbaycan Mərkəzi Bankının qısamüddətli notlarının yerləşdirilməsi üzrə hərrac keçirilib.

BFB-dən AZƏRTAC-a bildiriblər ki, hərraca çıxarılan notların həcmi 300 milyon manat, bir notun nominal dəyəri 100 manat, tədavül müddəti 28 gündür.

Notlar dekabrın 5-də ödəniləcək. Hər bir bank tərəfindən təqdim edilən sifarişlərin ümumi sayı 2-dən (1 rəqabətli və 1 qeyri-rəqabətli) artıq olmamalıdır.

Hərrac zamanı notların buraxılışının 20 faizdən artıq olmamaq şərtilə qeyri-rəqabətli sifarişlərin qəbul edilməsinə icazə verilir.

Mərkəzi Bankın qısamüddətli notlarının alıcıları yalnız lisenziya əsasında fəaliyyət göstərən yerli banklar ola bilər.

# Rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə İşçi Qrup yaradılıb



"2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" ilə əlaqədar məsələlərin müzakirəsi üçün 7 bankın iştirakı ilə İşçi Qrup yaradılıb.

Azərbaycan Banklar Assosiasiyasından (ABA) AZƏRTAC-a bildiriblər ki, qurumun Rəyasət Heyətinin geniş iclasında əsas müzakirə mövzuları "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" ilə əlaqədar məsələlərin, həmçinin bu il sayca üçüncüsü baş tutacaq "Beynəlxalq Bankçılıq Forumu"nun, eləcə də ABA tərəfindən illik əsasda keçirilən "Bankçılıq Mükafatları 2018" tədbirinin müzakirəsi və digər cari məsələlər olub.

İclasda "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın müzakirəsi üçün 7 bankın iştirakı ilə İşçi Qrup yaradılıb. İşçi Qrupa "Kapital Bank" ASC, "Rabitəbank" ASC, "Azərbaycan Beynəlxalq Bankı" ASC, "Unibank" KB ASC, "Bank Respublika" ASC, "Yapı Kredi Bank" QSC və "Paşa Bank" ASC daxildir.

Rəyasət Heyətinin iclası zamanı noyabrın 15-16-da keçiriləcək III Beynəlxalq Bankçılıq Forumunun təşkilati məsələləri də müzakirə edilib. Qeyd edək ki, builki forumda ABŞ, Yaponiya, Avropa, Çin və MDB ölkələrindən 100-ə yaxın beynəlxalq təşkilatların və nüfuzlu şirkətlərin nümayəndələri iştirak edəcək.

İclasda, eyni zamanda, ABA tərəfindən illik əsasda keçirilən "Bankçılıq Mükafatları 2018" tədbiri ilə əlaqədar məsələlər müzakirə olunub. Bu il tədbirin "Korporativ sosial məsuliyyət", "Ən fəal maliyyə savadlığı dəstəkçisi", "Ən fəal təhsil dəstəkçisi", "Nağdsız ödənişlərin ən fəal təşviqçisi", "Ən fəal ekspert qrupu", "Bank-maliyyə sektoruna aid araşdırma və məqalələrlə fərqlənən bank nümayəndəsi" nominasiyaları üzrə keçirilməsi qərara alınıb.






# «BRAVO» ən müasir dünya standartlarına cavab verən ticarət infrastrukturudur




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva noyabrın 7-də "Bravo" marketlər şəbəkəsinin metronun "Koroğlu" stansiyasının yaxınlığında yerləşən yeni hipermarketinin açılışında iştirak ediblər.
AZƏRTAC xəbər verir ki, hipermarketdə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verildi. "Bravo" Azərbaycanın ən böyük hipermarket şəbəkəsi hesab olunur. Bildirildi ki, inşasına ötən ilin mayında başlanılan bu ticarət obyektinin ümumi sahəsi 7 hektardan, ticarət sahəsi isə 8 min kvadratmetrdən artıqdır. Hipermarketin qapalı və açıq avtodayanacağının sahəsi 11 min kvadratmetrdən çoxdur. Bu dayanacaqlarda eyni vaxtda 800-ə yaxın avtomobil saxlanıla bilər. Zövq oxşayan müasir tərtibatlı hipermarketdə bazarlıq üçün hərtərəfli imkanlar var. Müştərilərə ən geniş çeşiddə müxtəlif növ məhsullar təqdim edilir. Yeni hipermarketdə alıcılara, həmçinin "Bravo" özəl ticarət markasına məxsus ərzaqlar, müxtəlif çeşiddə keyfiyyətli qeyri-qida məhsulları da təklif olunur.

Məlumat verildi ki, "Bravo" şəbəkəsinə məxsus market və hipermarketlərdəki ərzaq məhsullarının 90 faizindən çoxu yerli məhsullardır. Dövlətimizin başçısı bununla bağlı məmnunluğunu bildirdi və təbriklərini çatdırdı. Bu fakt ölkə iqtisadiyyatının digər sahələri ilə yanaşı, yerli ərzaq sənayesi sektorunun da sürətlə inkişaf etdiyini bir daha göstərir.
Burada "Bravo kafe", uşaqlar üçün xüsusi zona, "Kapital Bank", "McDonalds", "Buta aptek" də fəaliyyət göstərəcək. Yeni iş yerlərinin açılması baxımından da "Bravo" hipermarketi əhəmiyyəti ilə seçilir. Belə ki, burada 335 nəfər işlə təmin olunub. Onların orta aylıq əməkhaqqı 540 manata yaxındır. Yeni istifadəyə verilən "Bravo" hipermarketi də şəbəkəyə aid digər yerlərdə olduğu kimi, peşəkar komandası ilə seçilir. Bir sözlə, Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə sürətli iqtisadi inkişafa nail olunub və bu proses uğurla davam edir. Sürətli inkişaf Azərbaycanın hər yerində bütün sahələrdə, o cümlədən ən müasir ticarət infrastrukturunun yaradılmasında da özünü aydın göstərir. Təsadüfi deyil ki, ölkə iqtisadiyyatında qazanılan uğurlarda ticarət sahəsinin də ilbəil inkişafı və genişlənməsi vacib rol oynayır. Son illərdə ölkəmizdə ən müasir dünya standartlarına cavab verən ticarət, alış-veriş mərkəzləri istifadəyə verilib. Bu baxımdan "Bravo" hipermarketinin öz yeri var. Bu cür ticarət mərkəzlərinin yaradılması vətəndaşların, o cümlədən ölkəmizə gələn və sayı durmadan artan turistlərin rahatlığını təmin edir. Bununla yanaşı, bu müasir ticarət infrastrukturunun istifadəyə verilməsi







mükəmməl xidmət üçün təlimli və təcrübəli işçi heyətin fəaliyyət göstərməsi burada müştərilərə nümunəvi xidmət etməyə imkan yaradacaq.
Ümumilikdə, indiyədək Bakı və Gəncə şəhərlərində "Bravo" şəbəkəsinə məxsus 27 mağaza, o cümlədən 3 hipermarket alıcıların ixtiyarına verilib. "Bravo" şəbəkəsinin əsas məqsədlərindən biri beynəlxalq standartlar səviyyəsində fəaliyyət göstərməklə yanaşı, yüksək keyfiyyətli innovativ məhsullar təklif etməkdir. Şəbəkənin bütün mağazaları müasir dizaynı ilə seçilir. "Bravo" şəbəkəsinə məxsus market və hipermarketlər daim yenilənən zəngin çeşid, qida təhlükəsizliyinə və gigiyenaya zəmanəti ilə də fərqlənir. paytaxtımızın iqtisadi potensialını nümayiş etdirərək, ümumilikdə, Azərbaycanın iqtisadi inkişafına xidmət edir.
Böyük zövqlə inşa olunan bu hipermarket, eyni zamanda, yerləşdiyi ərazinin gözəlliyini artırmaqla, son dövrlərdə Bakının dünyanın ən müasir şəhərlərindən birinə çevrilməsi istiqamətində həyata keçirilən işlərin davamlı olduğunu nümayiş etdirir.
Bu layihənin icrası həm də dövlət-özəl biznes tərəfdaşlığının əyani nümunəsi olmaqla, ölkəmizdə iş adamları üçün yaradılan şəraiti və əlverişli investisiya mühitini, həmçinin son illərdə yeni iş yerlərinin açılması sahəsində həyata keçirilən tədbirlərin miqyasını göstərir.

# Əlavə Dəyər Vergisinin ÜDM-ə nisbəti növbəti il üçün 5,0 faiz nəzərdə tutulub

Növbəti il üçün proqnozlaşdırılmış ƏDV məbləğinin 44,0 faizi Vergilər Nazirliyinin, 56,0 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə təmin ediləcək.
Bu barədə Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deyib.
Bildirilib ki, 2019-cu il üçün nəzərdə tutulmuş artım məbləğinin komitə tərəfindən təmin edilməsi ölkədaxili dövriyyələrin tam bəyan olunmaması şəraitində Vergilər Nazirliyinin xətti ilə büdcə gəlirləri üzrə artıqödəmə məbləğində artımın olmasına təsir göstərəcək.
Eyni zamanda, cari ilin 6 ayı ərzində artıqödəmə ilin əvvəli ilə müqayisədə 3,9 faiz, ötən ilin müvafiq dövrü ilə müqayisədə 14,1 faiz azalmasına baxmayaraq, 2,4 milyard manat təşkil edir. Vergi daxilolmalarının effektinin və nəzərdə tutulmuş dəyişikliklərin təsirinin qiymətləndirilməsi, ilk növbədə, artıqödəmə məbləğlərinin ləğvini tələb edir.
"Büdcənin vergi gəlirlərinin tərkibində Əlavə Dəyər Vergisinin ÜDM-ə nisbəti növbəti il üçün 5,0 faiz nəzərdə tutulub. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv dövlətlərdə orta göstərici 7 faizə yaxındır", - deyə palata sədri qeyd edib.
V.Gülməmmədov diqqətə çatdırıb ki, Vergi Məcəlləsində publik hüquqi şəxslərin gəlirlərinin mənfəət vergisindən müddətsiz olaraq azad olunması ilə bağlı nəzərdə tutulmuş dəyişikliyin tətbiqinin publik hüquqi şəxslər tərəfindən maliyyə, mühasibat və vergi



uçotunun kommersiya qurumunda olduğu kimi deyil, büdcə təşkilatında olduğu kimi aparılması ilə nəticələnəcəyini ehtimal etmək olar. Hesablama Palatası həmin azadolmaların müəyyən vaxt məhdudiyyəti çərçivəsində tətbiqini təklif edir.
Ümumiyyətlə, güzəşt və azadolmaların təsir miqyasının və onların tətbiq olunmadığı təqdirdə həmin vergi məbləğlərinin iqtisadi sistemə effektinin qiymətləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Vergi güzəştlərinin tətbiqində əsas məqsəd vergiödəyicilərinin vergi yüklərinin bərabərləşdirilməsidir.
Bu baxımdan Hesablama Palatası vergi xərclərinin qiymətləndirilməsinin tətbiqini məqsədəmüvafiq hesab edir.

# Azərbaycan Sənaye Korporasiyasının fəaliyyətinin bir ili tamam olur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2017-ci il 6 noyabr tarixli Fərmanına əsasən yaradılan "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin bir ili tamam olur. Bununla əlaqədar olaraq korporasiyanın əməkdaşları Fəxri Xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər.

"Azərbaycan Sənaye Korporasiyası" (ASK) Açıq Səhmdar Cəmiyyətindən bildiriblər ki, korporasiyanın yaradılması ölkə iqtisadiyyatının gələcək inkişafı istiqamətində atılan mühüm addımlardandır. Onun fəaliyyətinin əsas məqsədləri dövlət əmlakının idarə edilməsinin səmərəliliyini artırmaq, idarəçiliyində olan müəssisələr arasında əlverişli kooperasiya əlaqələri yaratmaq, istehsal potensialının gücləndirilməsinə nail olmaqdır.

Bu il ərzində "Azərbaycan Sənaye Korporasiyası" Açıq Səhmdar Cəmiyyəti sənaye məhsulları istehsalının həcminin artırılmasına və keyfiyyətinin yüksəldilməsinə, ölkədə, əsasən də regionlarda yeni iş yerlərinin yaradılması yolu ilə əhalinin maddi rifahının yüksəldilməsinə yönəlmiş mühüm silsilə tədbirlər həyata keçirib.

Hazırda "ASK" ASC tərəfindən qeyri-neft sektorunun müxtəlif sahələrini əhatə edən 17 törəmə müəssisə yaradılıb. Bunlardan sosial-iqtisadi əhəmiyyət kəsb edən bir sıra müəssisələri, o cümlədən "Azərpambıq" Aqrar Sənaye Kompleksini, "Azəripək" MMC-ni, "Azəralüminium" MMC-ni, "ASK Şüşə" MMC-ni, "Azərtütün" MMC-ni və digərlərini göstərmək olar. Pambıqçılıq sahəsində idarəetmə strukturu dəyişilib, maddi-texniki baza yenilənib, yeni pambıqyığan kombaynlar alınıb. Tütünçülük sahəsində fermerlərin əkin prosesi üzrə maarifləndirilmə işləri gedir. Tütün əkilən sahələr artırılıb və artmış yaşıl tütünün yığımı üçün 3 ay ərzində Balakən tütün qəbulu məntəqəsi tamamilə yenidən qurulub və yeni 60 ədəd tütünqurutma kameraları ilə təchiz olunub. Korporasiyanın mühüm alüminium və şüşə məmulatları istehsalı sahələrinin modernləşdirilməsi işləri davam edir və bu müəssisələrin strateji inkişaf planı hazırlanır.

Müasir texnologiyaların tətbiqinə əsaslanan layihələrin həyata keçirilməsi nəticəsində istehsal olunan məhsulların keyfiyyətinin beynəlxalq standartlar səviyyəsinə çatdırılması həmin müəssisələr tərəfindən istehsal edilən məhsulların dünya bazarlarına çıxarılmasına, Azərbaycan məhsullarına tələbatın artmasına, bu isə öz növbəsində, valyuta ehtiyatlarının çoxalmasına xidmət edəcək.

"Made in Azerbaijan" brendinin təşviqi, yerli məhsulların xarici ölkələrdə tanıdılması məqsədilə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə növbəti ixrac missiyası noyabrın 6-da Bolqarıstanın paytaxtı Sofiya şəhərinə yola düşüb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, missiyaya qida məhsulları, şərab və digər spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən 25 yerli şirkətin nümayəndəsi daxildir. İxrac missiyası çərçivəsində Azərbaycan ixracatçıları görüşlər keçirəcək, ixrac məsələlərinə dair müzakirələr aparacaqlar. Bolqarıstana təşkil olunan səfər noyabrın 9-na kimi davam edəcək.

# Paytaxtın kimya sənayesində məhsul buraxılışı azalıb



Bu ilin doqquz ayında Bakının kimya sənayesində məhsul buraxılışı azalıb.

AZƏRTAC Bakı Şəhər Statistika İdarəsinin hesabatına istinadla xəbər verir ki, üç rübdə paytaxtın kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastik kütlə məmulatlarının istehsalı sahələrində 211,7 milyon manatlıq məhsul istehsal edilib. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə məhsul buraxılışı kimya sənayesində 21,2 faiz azalıb, əczaçılıq məhsullarının istehsalında 3,2 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalında isə 36,4 faiz artım müşahidə olunub.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əsas kimya məhsullarından azot istehsalı 61,6 faiz, oksigen istehsalı 58,1 faiz artıb.

Rezin və plastik kütlə məmulatlarından bərk polietilen borular, borucuqlar, şlanqlar, qolların istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,6 dəfə artıb, polietilen kisə və çantaların istehsalı 3,6 faiz, liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqların istehsalı isə 71 faiz azalıb.

# "Moskovski" şirkəti Azərbaycan sahibkarları ilə əməkdaşlıqda maraqlıdır

Rusiyanın "Moskovski" Açıq Səhmdar Cəmiyyəti Azərbaycan sahibkarları ilə əməkdaşlıqda maraqlıdır.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) bildiriblər ki, şirkət sahibkarlara əməkdaşlıq etməkdə maraqlı olduğu layihə təkliflərini təqdim edib. ASC meyvə şirələrinin qablaşdırılması, şərab məhsullarının, konservləşdirilmiş məhsulların, yüksəkkeyfiyyətli quru meyvələrin, mineral suların istehsalı ilə bağlı zavodun yaradılması və quşçuluq təsərrüfatının yaradılması istiqamətində sahibkarlarla əməkdaşlıq etmək niyyətindədir.

# Azərbaycan nümayəndə heyəti Çində səfərdədir



İqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə rəsmi şəxslərdən və sahibkarlardan ibarət nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.

AZƏRTAC xəbər verir ki, səfərin ilk günü İqtisadiyyat naziri Şahin Mustafayev Şanxayda keçirilən Birinci Çin Beynəlxalq İdxal Sərgisinin açılış mərasimində iştirak edib.

Sərginin açılış mərasimində Çin Xalq Respublikasının sədri Si Cinpin çıxış edib.

Qeyd edək ki, Milli Sərgi və Konqres Mərkəzində təşkil olunan sərgidə 170 ölkədən 3 mindən çox şirkət təmsil olunur. Bu, Çində idxal məhsullarının ilk sərgisidir. 100-dən çox yeni məhsul və texnologiyalar ilk dəfə olaraq məhz bu sərgidə nümayiş olunur.

Sərgidə qida məhsullarının istehsalı sahəsində fəaliyyət göstərən 30-dan çox Azərbaycan şirkətinin 180 çeşiddən artıq məhsulları qida və kənd təsərrüfatı məhsulları, həmçinin xidmətlər pavilionlarında təqdim edilir. İqtisadiyyat Nazirliyinin dəstəyi və Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycanın üzüm və meyvə şərabları və digər spirtli içkilər, çay, meyvə şirələri, mürəbbələr və digər konserv məhsulları, qənnadı məmulatları, fındıq, quru meyvələr və s. qida məhsulları "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş olunur. Azərbaycan pavilyonlarında sərgi ziyarətçilərinə məhsullarımız və xidmətlər barədə məlumat verilir, müxtəlif maarifləndirici materiallar təqdim edilir. Həmçinin, sərginin müxtəlif yerlərində "Made in Azerbaijan" reklam lövhələri quraşdırılıb. Noyabrın 10-dək davam edəcək sərgi çərçivəsində Çinin kənd təsərrüfatı və yeyinti sənayesi məhsullarının satışı ilə məşğul olan distributorları ilə Azərbaycan şirkətlərinin görüşləri təşkil olunacaq.

İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Birinci Çin Beynəlxalq İdxal Sərgisi ilə tanış olub.

Birinci Çin Beynəlxalq İdxal Sərgisi çərçivəsində bir sıra forumlar da keçirilir. Azərbaycan nümayəndə heyəti noyabrın 6-da Çin Xalq Respublikasının Bazar Tənzimlənməsi Administrasiyasının, Xarici ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının və Şanxay Bələdiyyəsinin birgə təşkil etdiyi "Kəmər və Yol: ekoloji kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi" Forumunda iştirak edib.

Forumda çıxış edən Şahin Mustafayev Azərbaycan-Çin münasibətlərinin qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslandığını vurğulayıb. Qeyd olunub ki, Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi və aparılan intensiv dialoq ölkələrimiz arasında iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradır. Azərbaycan Çinin "Kəmər və Yol" strategiyasını dəstəkləyən ilk ölkələrdən olmaqla yanaşı, bu təşəbbüsün reallaşdırılmasında yaxından iştirak edir. Çinin "Kəmər və Yol" təşəbbüsü çərçivəsində Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin potensialından istifadə olunması iqtisadi sahədə, xüsusilə investisiya, ticarət, tranzit sahəsində əməkdaşlıq üçün geniş imkanlar açır. Nəqliyyat-tranzit sahəsi ilə yanaşı, Azərbaycan Çinlə kənd təsərrüfatı və qida təhlükəsizliyi sahəsində də əməkdaşlıqda maraqlıdır. Çin şirkətləri artıq pambıqçılığın və ipəkçiliyin maddi-texniki bazasının inkişafında Azərbaycanla uğurlu əməkdaşlıq edir.

Ekoloji təmiz kənd təsərrüfatı və ərzaq təhlükəsizliyi ilə bağlı Azərbaycanda həyata keçirilən tədbirlər barədə məlumat verən nazir Şahin Mustafayev Azərbaycanda kənd təsərrüfatının inkişafına böyük önəm verildiyini vurğulayıb. Qeyd edilib ki, Azərbaycanda kənd təsərrüfatı istehsalçıları vergidən azaddır, onların güzəştli maliyyə resurslarına çıxışı üçün geniş imkanlar yaradılıb, texnika və lazımi infrastrukturla təmin edilib, suvarma sisteminin modernləşdirilməsi, investisiya və ixracın təşviqi proqramları ilə dəstək göstərilir, kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyalar verilir. Həyata keçirilən tədbirlər nəticəsində son 15 ildə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı 1,7 dəfə, bu ilin 9 ayı ərzində isə 4,3 faiz artıb. Azərbaycanın qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının payı 47 faizdən çoxdur. İxracın stimullaşdırılması tədbirləri nəticəsində kənd təsərrüfatı məhsullarının ixracı bu ilin ötən dövründə 13 faiz artıb.

İqtisadiyyat naziri vurğulayıb ki, Azərbaycanda aparılan sistemli islahatlar nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən yüksək qiymətləndirilir. Belə ki, Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub. Yeni hesabatda Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerə, MDB ölkələri arasında isə liderlik mövqeyinə yüksəlib. Ölkəmiz iki indikator üzrə 100 pillə irəliləyərək ciddi nailiyyət əldə edib, kiçik investorların maraqlarının qorunması indikatoru üzrə dünyada 2-ci yerə yüksəlməyə, biznesə başlama indikatoru üzrə isə ilk onluğa düşməyə nail olub.

Ərzaq təhlükəsizliyinə gəlincə, Şahin Mustafayev qeyd edib ki, son illər həyata keçirilən sosial-iqtisadi islahatlar çərçivəsində ərzaq təhlükəsizliyi sisteminin optimallaşdırılması sahəsində də ciddi işlər görülüb, ərzaq təhlükəsizliyi sahəsində qabaqcıl ölkələrin təcrübəsinin tətbiqinin daha da genişləndirilməsi üçün ikitərəfli və çoxtərəfli formatda işlər aparılır.

Azərbaycan nümayəndə heyətinin üzvləri – kənd təsərrüfatı nazirinin müavini Seyfəddin Talıbov, AZPROMO-nun prezidenti vəzifələrini icra edən Yusif Abdullayev, Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Rüfət Rüstəmzadə forum çərçivəsində keçirilmiş "Ticarət və investisiya" adlı tədbirdə iştirak ediblər.

# SOCAR 2018-ci ilin sonunadək Rusiyadan qaz idxalını başa çatdıra bilər



Bunu açıqlamasında SOCAR-ın ictimaiyyətlə əlaqələr üzrə rəsmi nümayəndəsi İbrahim Əhmədov deyib. "Qazprom" PSC ilə müqavilə 2018-ci ilin sonunadək qüvvədədir və müqavilə üzrə qalmış həcmlərin cari ilin sonuna kimi SOCAR-a tədarük ediləcəyi ehtimalı var. Nəzəri olaraq bu həcmləri növbəti illərə də keçirmək olar, amma belə ehtimal hələ ki ideya olaraq mövcuddur", - deyə o qeyd edib.

Rəsmi nümayəndənin sözlərinə görə, "Qazprom"la qüvvədə olan müqavilə çərçivəsində SOCAR-ın almalı olduğu qazın qalmış həcmi az - bir neçə yüz milyon kubmetrə qədərdir.

İ.Əhmədov bir daha vurğulayıb ki, mövcud sazişdən kənar Rusiyadan əlavə qaz həcmlərinin idxalı məsələsi nəzərdən keçirilmir.

21 noyabr 2017-ci il tarixində "Qazprom eksport" ASC və SOCAR arasında Azərbaycana qaz tədarükü haqqında müqavilə imzalanıb. Tədarükə noyabrın 22-dən başlanılıb. 1 illik müqavilə çərçivəsində Azərbaycana 1,6 mlrd. kubmetr Rusiya qazının tədarükü planlaşdırılır.

Ötən il Rusiyadan Azərbaycana 349 mln. kubmetr qaz tədarük edilib.

# SOCAR AQŞ və "Surqutneftqaz" əməkdaşlığın perspektivlərini müzakirə edib

Müəssisədən bildirilib ki, SOCAR AQŞ-də "Surqutneftqaz" ASC-nin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə gələcək əməkdaşlığın perspektivləri müzakirə olunub.

Görüşdə SOCAR AQŞ-nin Azərbaycanda və Banqladeş Xalq Respublikasında həyata keçirdiyi qazma layihələri barədə məlumat verilib. "Ümid" və "Bulla" kimi mürəkkəb geoloji quruluşa malik yataqlarda aparılan qazma layihələri qonaqlarda zəngin təəssürat yaradıb.

Nümayəndə heyəti müəssisədə həyata keçirilən dinamik idarəetmə sistemi, rəqəmsal texnologiyaların tətbiqi, işçi personalının təkmilləşdirilməsi istiqamətində aparılan yeni layihələrlə də tanış olub.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran məsələlər və ikitərəfli əməkdaşlığın daha geniş inkişaf perspektivləri barədə müzakirələr aparılıb.

# Dövlət Neft Fondu "Şahdəniz" layihəsi üzrə gəlirlərini açıqlayıb



2007-ci ildən cari ilin noyabr ayının 1-dək Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) "Şahdəniz" yatağı üzrə qazın satışından əldə olunan ümumi gəlirləri 2 milyard 506 milyon ABŞ dolları olub. Bu barədə ARDNF-nin ictimaiyyətlə əlaqələr departamentindən bildirilib.

Xatırladaq ki, bu ilin əvvəlində "Şahdəniz" layihəsi çərçivəsində xarici sərmayəçilər tərəfindən Neft Fonduna 108 milyon dollar əlavə bonus ödənilib.

# Neft Fondu bu il "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə 8,3 milyard dollar qazanıb



Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) 2001-ci ilin əvvəlindən bu il noyabr ayının 1-dək Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində, ümumilikdə 136 milyard 782 milyon ABŞ dolları gəlir əldə edib.

Bu barədə ARDNF-nin ictimaiyyətlə əlaqələr departamentindən bildirilib.

Qeyd edilib ki, bu ilin yanvar-oktyabr aylarında isə AÇG layihəsi çərçivəsində Dövlət Neft Fonduna 8 milyard 296 milyon dollar vəsait daxil olub.

O cümlədən, cari ilin on ayında Neft Fondunun "Şahdəniz" yatağı üzrə kondensatın satışından əldə olunan gəlirləri 181 milyon dollar təşkil edib.

Xatırladaq ki, bu il yanvarın 29-da Neft Fonduna "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" SOCAR ilə xarici hasilat şirkətləri arasında imzalanmış yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

# BP: 2035-ci ildən qlobal neft tələbatı azalmağa başlayacaq



2035-ci ildə qlobal neft tələbatı tədricən azalmağa başlayacaq. BP şirkətinin Rusiya və MDB ölkələri üzrə baş iqtisadçısı Vladimir Drebentsov bu fikirdədir.

BP-nin "2017-ci il üçün statistik təhlili" və "Enerji perspektivlərinə baxışı-2035" adlı hesabatlarını şərh edən V.Drebentsov bildirib ki, hesabatlarda qlobal enerji bazarındakı son vəziyyət, enerji sektorundakı ehtiyaclar və tendensiyalar öz əksini tapıb. Bu məlumat və təhlillər neft-qaz bazarındakı tendensiyaları izləməyə, neftin qiymətinə təsir edən amilləri, neft hasil və ixrac edən ölkələrin gələcək addımlarını müəyyənləşdirməyə kömək edə bilər.

Neftin qiymətinin 100 dollar/barrelə qalxma ehtimalına gəlincə isə BP-nin baş iqtisadçısı hesab edir ki, bu mümkündür: "Lakin qiymətin bu səviyyədə qalması davamlı olmayacaq. Bu, uzunmüddətli proqnozlar üçün əsas ola bilməz. Ortamüddətli perspektivdə isə neftin qiymətinə geosiyasi proseslər təsir göstərəcək. Venesuela və İran faktorları bu kontekstdə özünü daha çox büruzə verir. Venesuelada neft istehsalı düşür. Qarşıdakı illərdə istehsal daha da azala və ya sabit qala bilər. ABŞ-ın sanksiyalarından sonra İranda neftin istehsal və ixrac həcmi azalır".

V.Drebentsovun fikrincə, dünya enerji bazarı ABŞ-dakı şist neft hasilatı və OPEC-in tədbirlərindən də asılıdır.

Yaxın perspektivdə neft tələbatı tədricən artacaq. Neft enerji resursu kimi 2040-cı ilədək öz aparıcı mövqeyini qoruyub saxlayacaq.

Lakin dünyada yeni trendlərin, texnoloji dəyişikliklərin gələcək perspektivlərdə neftin həlledici rolunu zəiflətməsi də qaçılmazdır.

# Donald Tramp: Neftin qiymətinin artmasını istəmirəm



"İrana qarşı sanksiyalarda asta-asta hərəkət edəcəyəm. Çünki neftin qiymətinin artmasını istəmirəm", - deyə o bildirib.

ABŞ Prezidenti İrana qarşı çox güclü və sərt mövqedə olduqlarını deyib: "Bu vaxtadək İrana qarşı ən sərt sanksiyaları tətbiq etdik. Lakin neftin qiymətində bir az asta hərəkət etmək istəyirik".

ABŞ-ın neftin qiymətində ehtiyatlı mövqe tutacağını bildirən D.Tramp əlavə edib: "Bunun İranla heç bir əlaqəsi yoxdur. İranın neft ixracını dərhal sıfıra endirmək olar. Ancaq bu, bazarlarda şoka səbəb olacaq".

Qeyd edək ki, ABŞ-ın İrana qarşı sanksiyalarının ikinci mərhələsi noyabrın 5-də rəsmən qüvvəyə minib. Sanksiyalar çərçivəsində İrandan neft idxalını əhəmiyyətli dərəcədə azaldan 8 ölkəyə - Türkiyə, Çin, Hindistan, Koreya Respublikası, İtaliya, Yunanıstan, Yaponiya və Tayvana müvəqqəti güzəşt tətbiq olunacaq. Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp mayın 8-də ölkəsinin nüvə razılaşmasından birtərəfli çıxdıqdan sonra İrana qarşı sanksiyalar tətbiq edəcəyini açıqlamışdı. Bundan sonra ABŞ Maliyyə Nazirliyi Birləşmiş Ştatların İrana qarşı sanksiyalarının 90 və 180 günlük ara ilə iki mərhələdən ibarət olacağını bildirmişdi. 90 gündən sonra ilk sanksiya paketi avqustun 7-də qüvvəyə minib. 180 gündən sonra, yəni noyabrın 5-dən ikinci sanksiya paketi tətbiq olunmağa başlayıb.

# Cocuq Mərcanlı kəndində suvenir fabrikinin tikintisi aparılır



Bunu Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib. Onun sözlərinə görə, bu layihə Türkiyənin Beynəlxalq Əməkdaşlıq və İnkişaf Agentliyinin (TIKA) təşəbbüsüdür:

"Hazırda TIKA-nın həyata keçirdiyi işlər çərçivəsində kənd ərazisində istixanalar və arıçılıq təsərrüfatları yaradılıb. Bunlarla paralel olaraq suvenir fabrikinin tikintisi davam edir".

Qeyd edək ki, Azərbaycan Maliyyə Nazirliyi ilə Türkiyə səfirliyinin birgə layihələri çərçivəsində Cocuq Mərcanlıda 15 istixana quraşdırılıb. Bundan başqa, 15 ailəyə 10 arı ailəsi və müxtəlif arıçılıq avadanlıqları verilib.

# ABŞ-ın İrana qarşı yeni sanksiyaları da "Cənub Qaz Dəhlizi" layihəsinə şamil edilməyib

Bu barədə ABŞ Maliyyə Nazirliyinin noyabrın 2-də ABŞ Federal Reyestrində nəşr olunan bildirişində deyilir.

Sənəddə bildirilir ki, ABŞ "Cənub Qaz Dəhlizi" layihəsini yaxın günlərdə qüvvəyə minəcək antiiran sanksiyalarından istisnalar siyahısına daxil edib. Bərpa olunan antiiran sanksiyaları Azərbaycandan Türkiyəyə və Avropaya təbii qazın nəqli üçün boru kəmərinin tikintisi və istifadəsi, eləcə də təbii qaz yataqlarının işlənməsi ilə bağlı layihələri həyata keçirən şəxslərə şamil olunmur.

Xatırladaq ki, İran Milli Neft Şirkəti ("NIOC") "Şahdəniz" layihəsində 10 faizlik paya sahibdir.

ABŞ-ın İrana qarşı avqustun əvvəlində tətbiq etdiyi ilk sanksiya paketi də "Cənub Qaz Dəhlizi" layihəsinə şamil edilməmişdi. ABŞ-ın İran neftinə dair yeni sanksiyaları isə bazar ertəsi elan ediləcək. Səkkiz ölkəyə İrana qarşı tətbiq olunacaq sanksiyalardan güzəştə gediləcək.

İranın gündəlik neft ixracının 1 milyon barrel azalacağı nəzərdə tutulur.

ABŞ noyabrın 4-dən etibarən İranın milli neft-qaz şirkətlərinə beynəlxalq məhdudiyyətlər qoyacaq, neft və qaz satışına sanksiyalar tətbiq edəcək.

# Hər bir paytaxt sakini ayda 172 manatlıq müxtəlif ödənişli xidmətlərdən istifadə edib

Yanvar-sentyabr aylarında Bakı əhalisinə göstərilən ödənişli xidmətlərin dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,6 faiz artaraq 3816,5 milyon manat olub. Bakı Şəhər Statistika İdarəsindən bildiriblər ki, hüquqi şəxslər tərəfindən əhaliyə 2402,9 milyon manatlıq xidmət göstərilib ki, bu da xidmətin ümumi dəyərinin 63,0 faizini təşkil edib.

Qeyri-dövlət sektorunda əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,3 faiz artaraq 3041,2 milyon manata çatıb. 2018-ci ilin yanvar-sentyabr ayları ərzində hər bir şəhər sakini orta hesabla ayda 172,0 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 6,2 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə edib.



# Azərbaycan çayı Türkiyəyə ixrac olunacaq



İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Türkiyənin İstanbul şəhərinə təşkil olunmuş Azərbaycan ixrac missiyası başa çatıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, ixrac missiyasında Naxçıvan Muxtar Respublikasında qida, inşaat və tikinti materialları, kimya sənayesi, mebel istehsalı və turizm sahələrində fəaliyyət göstərən 19 şirkət iştirak edib.

Missiya çərçivəsində Azərbaycan sahibkarları türkiyəli həmkarları ilə ikitərəfli görüşlər keçirib, məhsullarımızın Türkiyəyə ixracının genişləndirilməsinə dair müzakirələr aparıblar. Görüşlər zamanı türk iş adamlarına təqdim olunan Azərbaycan məhsulları türk şirkətləri tərəfindən maraqla qarşılanıb və ixraca dair ilkin razılıqlar əldə olunub. Belə ki, Azərbaycanın "Farma-Şah" MMC şirkəti ilə Türkiyənin müvafiq şirkəti arasında Azərbaycan çayının Türkiyəyə ixracına dair razılığa gəlinib. Bundan başqa, "Naxçıvan Sement Zavodu" MMC ilə "BASF Türkiyə" şirkəti arasında sement istehsalında qatqı kimi istifadə olunan xammalın ixracı ilə bağlı danışıqlar aparılıb. Türkiyənin "Koç Mermer Granit" şirkətinin tikinti layihələri üçün Azərbaycanın "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" MMC-nin məhsullarından istifadə olunmasına dair razılaşma əldə olunub. "Cahan Pen" MMC və "Cahan Sənaye Kompleksi" MMC şirkətləri ilə Türkiyənin "Gema" və "Marmara" plastik qapı pəncərə istehsalı müəssisələri arasında məhsulların satışına və xammalın alınmasına dair danışıqlar aparılıb.

Növbəti ixrac missiyası noyabrın 6-9-da Bolqarıstana təşkil ediləcək.

# Sahib Ələkbərov: Vergi qanunvericiliyinə dəyişikliklər biznes mühitinin təkmilləşdirilməsinə yönəlib

“Vergi Məcəlləsinə edilən və 2019-cu ildə qüvvəyə minəcək dəyişikliklər hər bir vergi ödəyicisinin işində şəffaflığın təmin olunmasına, eləcə də biznes mühitinin inkişafı üçün optimal şərtlərin yaradılmasına yönəlib”.

Bunu Trend-ə Vergilər nazirinin müavini Sahib Ələkbərov deyib.

Nazir müavini qeyd edib ki, vergi ödəyiciləri arasında vergidən tam yayınan şəxslər çoxdur:

“Sahibkarların əksəriyyəti öz gəlirlərini, kapital dövriyyəsini gizlətməyə çalışır. Bu, ilk növbədə ticarət və xidmət obyektlərini idarə edən şəxslərə aiddir. Dövriyyəni tam gizlədib vergi ödəməyən şəxslər də var, vergiləri qismən ödəyənlər də. Ona görə də bu problemi həll etmək üçün biz vergi siyasətini təkrar nəzərdən keçiririk və vergidən yayınan vergi ödəyiciləri ilə münasibətdə tədbirləri sərtləşdirmək niyyətindəyik”.

S.Ələkbərovun sözlərinə görə, vergi sahəsində planlaşdırılmış dəyişikliklər sərt addımlarla yanaşı, bir sıra müsbət məqamları da əks etdirir: “İlk növbədə biz biznes obyektlərində yoxlamaların sayının azaldılmasını təklif edirik. Bundan başqa, Bakıda bizneslə məşğul olan sahibkarların vergi ödəmə şərtlərində dəyişikliklər təklif olunub. Qaydalara əsasən, Bakıda sadələşdirilmiş vergi üzrə ödəmələr 4 faiz, regionlarda 2 faiz təşkil edir. Bu göstəricilərin bərabərləşdirilməsi, həm Bakıda, həm də regionlarda sahibkarların 2 faiz vergi ödəməsi barədə təklifləri var”.

Nazir müavini əlavə edib ki, dəyişikliklər ölkədə biznes mühitinin yaxşılaşması və biznesin təkmilləşməsinə yönəlmiş digər güzəştləri də nəzərdə tutur:

“Hesab edirik ki, bu tədbirlərin reallaşdırılması həm dövlət, həm də vergi ödəyiciləri üçün müsbət nəticələr verəcək”.

# Doqquz ayda Bakının metallurgiya sənayesində 336,2 milyon manatlıq məhsul istehsal olunub

Cari ilin yanvar-sentyabr aylarında Bakı şəhərində metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində 336,2 milyon manatlıq məhsul istehsal olunub.

Bakı Şəhəri Statistika İdarəsindən bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə metallurgiya sənayesində 34,9 faiz artım, hazır metal məmulatlarının istehsalı sahəsində isə 2,5 faiz azalma müşahidə edilib. Əvvəlki ilin müvafiq dövrünə nisbətən sahə üzrə alüminium çubuqlar, millər və profillər 16,3 faiz, misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellərin istehsalı 12,8 faiz, armaturun istehsalı 30,3 faiz artıb, qara metallardan digər konstruksiyaların istehsalı isə 77,5 faiz azalıb.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən “Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi” layihəsi çərçivəsində çap olunub.**

# Standartlar əsasında istehsal edilən gündəlik qida məhsulu

## Azərbaycanda süd bazarında tam təbii məhsul istehsalçısı: “QayMaq” brendi

*Hazırda ölkədə sahibkarlara yaradılan şərait, əlverişli iqtisadi mühit və möhkəm hüquqi əsasları olan qanunvericilik bazası iqtisadiyyatın digər sahələri kimi, qida sənayesinin də inkişafına böyük təkan verir. Prezident İlham Əliyevin sahibkarlara göstərdiyi diqqət və qayğı, sahibkarların müdafiəsi ilə bağlı etdiyi son çıxışlar, müvafiq fərman və sərəncamlar ölkə sahibkarlarını daha yaxşı işləməyə sövq edir. Yerli sahibkarlığın inkişaf etdirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, yeni iş yerlərinin açılması ölkə başçısının daim diqqət mərkəzindədir və bu istiqamətdə iş adamlarına lazımi şərait yaradılmışdır.*

*Azərbaycanın qida sektorunda 1997-ci ildə fəaliyyətə başlayan “Xırman” şirkəti istehsal etdiyi müxtəlif çeşidli məhsullarla bazarda özünəməxsus yer tutmuşdur. Şirkət və onun məhsulları barədə daha ətraflı məlumat əldə etmək məqsədilə “QayMaq” brendinin lahiyə rəhbəri Leyla xanım Quliyevaya müraciət etdik.*

**- Leyla xanım, əvvəlcə şirkətin gördüyü işlər barəsində qısa məlumat verərdiniz.**

- Hamımız yaxşı bilirik ki, süd və süd məhsulları insanların bütün ömür boyu istifadə etdikləri, çox mühüm bioloji əhəmiyyətə malik, vacib və əvəzolunmaz qida məhsullarıdır. Həmin məhsulların tərkibində insan orqanizmi üçün vacib olan bir çox bioloji aktiv maddələr balanslaşdırılmış şəkildə mövcuddur. Ona görə də süd və süd məhsulları canlı orqanizmlərin boy və fiziki inkişafını təmin edən universal qida məhsulu hesab edilir.

Ölkə iqtisadiyyatının sürətlə inkişaf etdiyi bir dövrdə istehlakçıların zövqlərinin və tələblərinin durmadan dəyişdiyinə nəzər salsaq görərik ki, onların məhsulun keyfiyyətinə, qidalılıq dəyərlərinə, qablaşdırılmasına və markalanmasına olan tələbləri dünənki günə nisbətən bu gün daha çoxdur. Məhz buna görə də Azərbaycanda mövcud tələblərə cavab verən, yüksək texnologiyalar əsasında hazırlanan, Azərbaycan süd məhsulları bazarında yeganə yerli premium qida olan “QayMaq” ticarət nişanından söz açmaq istəyirəm.

“QayMaq” Azərbaycan bazarında yalnız keyfiyyətli və 100% təbii yerli məhsulları təqdim edən bir brenddir. Buna görə də “QayMaq” məhsulları təbii xammaldan, Süd Emalı Zavodunun xüsusi istehsal sahəsində (XİS) klassik üsulla, gündəlik olaraq istehsal olunur və Bakıda yerləşən firma dükanlarına, supermarketlərə çatdırılır.




**- “QayMaq” brendinin çeşidləri və keyfiyyəti barədə nə deyə bilərsiniz?**

- “QayMaq” brendinin bir çox çeşidləri mövcuddur, bunlara kefir, süd, ayran, dovğa, qatıq, az duzlu və duzsuz pendirlər, yağlı və yağsız kəsmiklər, kərə yağları, qatılaşdırılmış şəkərli süd və qatılaşdırılmış şəkərli bişmiş süd, nehrə yağı, əridilmiş yağ, xama, qaymaq və hər zaman sağlam yaşamaq, formada qalmaq istəyənlər üçün “QayMaq” Fitness aiddir. “QayMaq” Fitness yağsızlaşdırılmış təbii süddən hazırlanır.

Müəssisəmizdə istehsal zamanı konservantlardan, əvəzləyicilərdən, süni əlavələrdən istifadə edilmir, müştərilərin sağlamlığının qayğısına qalınır, məhsulun keyfiyyətinə və əhəmiyyətinə önəm verilir. İstehsalın hər bir mərhələsində gigiyenik qaydalar nəzərə alınır və keyfiyyətə nəzarət edilir.

Məqsəd və məram təmiz olanda, çəkilən zəhmət də bəhrəsini verir. Bu məhsulları ölkə ərazisində geniş istehsal infrastrukturuna malik olan “XIRMAN” şirkəti istehsal edir. “Xırman” şirkəti Azərbaycan Respublikasının qida sektorunda 1997-ci ildən fəaliyyət göstərərək, istehsal etdiyi müxtəlif çeşidli məhsullarla bazarda layiqli yerini tutmuşdur. Təbii xammaldan istifadə edərək, yüksək keyfiyyət göstəricilərini əsas tutan şirkət un və çörək məmulatları, qatılaşdırılmış süd, yağ və digər süd məhsulları istehsalında ən son texnologiyaların istifadəsi ilə istehlakçıların böyük rəğbətini qazanmışdır.

Məhz, “Xırman” şirkəti Azərbaycanda ilk dəfə olaraq qatılaşdırılmış südün yerli istehsalını həyata keçirmiş və bu sahədə liderliyini qoruyub saxlaya bilmişdir. Beynəlxalq və yerli standartlar əsasında istehsal edilən gündəlik qida məhsulları yerli və xarici bazarların istehlakçılarını məmnun edəcək səviyyədədir. Buna baxmayaraq, yeniliklərə hər zaman açıq olan şirkət qloballaşan dünyada rəqabətədavamlı bir şirkət olmaq üçün heç zaman innovativ yeniliklərin tətbiqini ləngitmir.

**- Leyla xanım, şirkətiniz istehsal etdiyi süd və süd məhsullarını hansı ölkələrə ixrac edir?**

- Qeyd edək ki, “QayMaq” brendi sahib olduğu süd texnologiyası və iş metodu ilə təkcə Azərbaycanda tanınmır. Hazırda məhsullar Türkiyə, İran, Gürcüstan və Şimali Afrika dövlətlərinə ixrac edilməkdədir. Həmçinin, “Xırman” şirkəti ölkə ərazisində geniş istehsal şəbəkəsinə malikdir. Bakı şəhərində dəyirman kompleksi, çörək zavodu, süd istehsalı zavodu mövcuddur. İstehsal sahələrimiz Beynəlxalq StandartlaşdırmaTəşkilatının İSO 22000:2005 standartına malikdir.

***Sonda qeyd etmək istərdim ki, bir “Xırman” ailəsi olaraq bizim ən böyük nailiyyətimiz müştərilərimizin məmnuniyyətidir.***

**Müsahibəyə görə sağ olun.**

**Nailə Cabbarova**

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Dövlət bayrağı Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir

Azərbaycan Xalq Cümhuriyyəti hökuməti yarandığı ilk günlərdən - 1918-ci il iyunun 21-də Dövlət bayrağı haqqında qərar qəbul etdi. Həmin qərara əsasən qırmızı rəngli Dövlət bayrağı üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olunmuşdu. Bu bayraq cüzi fərqlə Osmanlı imperiyasının bayrağına bənzəyirdi. Lakin Azərbaycan Xalq Cümhuriyyəti hökuməti noyabrın 9-da Dövlət bayrağının təsvirini dəyişməyi qərara aldı. Yeni qərarla yaşıl, qırmızı və mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan milli bayraq qəbul edildi. İlk dəfə üçrəngli bayraq ideyasını Azərbaycan istiqlaliyyətinin ideoloqlarından olan Əli bəy Hüseynzadə gündəmə gətirib. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq göy, orta zolaq qırmızı, aşağı zolaq isə yaşıl rəngdədir. Qırmızı zolağın ortasında, bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilib. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını bildirir, türkçülük ideyası ilə bağlıdır. Türklərin göy rəngə üstünlük verməsi ilə bağlı müxtəlif izahlar da mövcuddur. Orta əsrlərdə islam dinində olan türkdilli xalqların yaşadığı ərazilərdə saysız-hesabsız qədim abidələr tikilib və bu abidələrin əksəriyyəti göy rəngdə olub. Bu baxımdan göy rəng, həm də simvolik məna daşıyır. Göy rəng XIII əsrdə Elxanilər dövrünün əzəmətini, onların zəfər yürüşlərini əks etdirirdi.

Qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək, bir sözlə, müasirləşməni, inkişafa istəyi ifadə edir. XVIII əsrin sonlarında Fransa Burjua inqilabından sonra kapitalizmin inkişafı ilə bağlı Avropa ölkələrində böyük irəliləyişlər baş verib. Həmin dövrdə proletariatın kapitalizm quruluşuna qarşı mübarizəsi olub. Bu illərdə qırmızı rəng Avropanın simvoluna çevrildi.

Yaşıl rəng – islam sivilizasiyasına və dininə mənsubluğu ifadə edir.

Azərbaycan bayrağının üç rəngi: türk milli mədəniyyətinin, müsəlman sivilizasiyasının və müasir Avropa demokratik əsaslarının simvoludur.

Milli operamızın banisi, dövlətimizin digər rəmzinin – dövlət himninin müəllifi dahi Üzeyir Hacıbəylinin fikrincə, bayrağımızın mənəvi mənası olaraq al boya türkçülüyə, yaşıl boya islamlığa, mavi boya isə mədəniyyətə işarədir.

Tarixçilərin bildirdiklərinə görə, bayrağın qırmızı rənginin ortasında təsvir olunan aypara və səkkizguşəli ulduzun



Xalq Cümhuriyyətinin üçrəngli bayrağı, 1918, 9 noyabr

mənaları barədə müxtəlif fikirlər var. Aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra həmin gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib və həmin dində olan başqa xalqlara da keçib. Bayrağın üzərindəki aypara türk xalqlarının simvoludur. Səkkizguşəli ulduzun mənasına gəlincə, bu, “Azərbaycan” sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada “Azərbaycan” sözü səkkiz hərflə yazılır.

Tarixdə səkkizguşəli ulduzun mənası belə açıqlanır: türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilik. Azərbaycan bayrağında ulduz Azərbaycan memarlıq üslubunda geniş istifadə olunub və səkkiz guşə səkkiz türk xalqının simvoludur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dövlət bayrağı ilə birlikdə digər dövlət rəmzləri - Dövlət gerbi, Dövlət möhürü və Dövlət himninin rəsmi qaydada qəbul edilməsi sahəsində müəyyən tədbirlər görülmüşdü. Cümhuriyyətin Dövlət bayrağı 1920-ci il Aprel işğalı nəticəsində ləğv edilsə də, Azərbaycan xalqının istiqlal mübarizəsində böyük rol oynadı. 1988-ci ildə Azadlıq hərəkatı başlandıqda üçrəngli bayraq yenidən qaldırıldı. Bununla da Məhəmməd Əmin Rəsulzadənin uzaqgörənliklə dediyi "Bir kərə yüksələn bayraq bir daha enməz” kəlamı özünü doğrultdu.

Azərbaycan Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən 1-ci sessiyasında Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu, 1990-cı il noyabrın 29-da "Azərbaycan SSR-in adının və dövlət bayrağının dəyişdirilməsi haqqında" fərman verildi və 1991-ci il fevralın 5-də qanunvericilik orqanı tərəfindən təsdiq olundu. Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında əsasnamə hazırlandı. Dövlət bayrağı haqqında məsələ Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmişdir. Konstitusiyanın 23-cü maddəsinin II bəndində göstərilir ki, "Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".







Xalqımızı 9 noyabr -
Azərbaycan Respublikasının Dövlət bayrağı
günü münasibəti ilə ürəkdən təbrik edirik!



# Правительство Азербайджана в 2019г из госбюджета планирует финансировать свыше 300 проектов



Правительство Азербайджана в рамках государственных капвложений в 2019 году планирует финансировать из госбюджета 310 проектов, отмечает Счетная палата.
"В 2019 году из госбюджета в рамках государственных капвложений планируется финансировать 60 новых и 250 переходных проектов (финансирование которых началось в предыдущие годы - ИФ)", - отмечается в заключении Счетпалаты по проекту госбюджета на 2019 год.
По данным палаты, в 2019 году планируется ввод в эксплуатацию 114 объектов, в том числе 62 инфраструктурных, 41 – социального, 5 – связанных с правоохранительными органами, 6 – прочего назначения.
"Госкапвложения на 2019 год оцениваются в 6 млрд 825,3 млн манатов. При этом, из госбюджета в следующем году 3 млрд 733,1 млн манатов будет направлено на проекты инвестиционного назначения", - подчеркивает палата.

# Для «ASAN xidmət» из государственного бюджета на будущий год будут выделены средства в размере 28 миллионов манатов




В соответствии с задачами, поставленными Президентом Ильхамом Алиевым по оказанию государственными органами услуг на высоком уровне населению страны, с целью организации деятельности и расширения круга охвата «ASAN xidmət» из государственного бюджета будущего года будут выделены средства в размере 28 миллионов манатов. Это на 15 процентов больше по сравнению с нынешним годом.
Об этом сказал министр финансов Самир Шарифов в ходе обсуждения государственного бюджета в совместном заседании комитетов Милли Меджлиса.
Министр отметил, что в проекте государственного бюджета предусмотрено также выделение определенных средств на расходы в связи с защитой интересов Азербайджанской Республики в Европейском суде по правам человека, а также исполнением внутри страны постановлений этих судов.
Планируется также выделение средств в размере 15 миллионов манатов на расходы, связанные с оказанием юридической помощи по уголовным делам малоимущим лицам во время судебных процессов, исполнением судебных постановлений, а также финансовым обеспечением других социально-экономических мероприятий. Кроме того, для финансового обеспечения уполномоченного по правам человека из государственного бюджета предусмотрено выделение средств в размере 2,3 миллиона манатов, что на 18,7 процента больше, по сравнению с нынешним годом.

# В 2019 году пенсии в Азербайджане увеличатся

Размер среднемесячной пенсии в будущем году в Азербайджане ожидается на уровне 240 манатов, сказал во вторник во время выступления на совместном заседании парламентских комитетов Милли Меджлиса (парламента) министр труда и социальной защиты населения Сахиль Бабаев.
По его словам, в будущем году также ожидается рост сборов по обязательному социальному страхованию.
Отметим, что средний размер пенсии в Азербайджане по состоянию на первое октября 2018 года равен 221,1 манатов, что на 8,4 процента больше показателя аналогичного периода 2017 года. При этом средний размер трудовой пенсии по возрасту составляет 249,1 манатов.
Бабаев подчеркнул, что в текущем году 1200 человек, получающих адресную социальную помощь, будут привлечены к программе самозанятости. «В будущем году их количество увеличится", - сказал министр.
Министр также отметил, что в скором времени будет завершена работа по автоматизации электронной системы занятости.

# В Шанхае обсуждены азербайджано-китайские экономические связи



Делегация, возглавляемая находящимся с визитом в Китае министром экономики, сопредседателем Азербайджано-китайской межправительственной торгово-экономической комиссии по сотрудничеству Шахином Мустафаевым, провела ряд встреч.
На встрече с руководителем корпорации «Китайские железные дороги» Лу Донгфу министр Шахин Мустафаев подчеркнул успешное развитие азербайджано-китайских связей, а также значимость политической воли глав государств Азербайджана и Китая в расширении сотрудничества между нашими странами. Было отмечено, что высокий уровень политических отношений между двумя странами вносит положительный вклад в расширение экономического сотрудничества, в том числе, связей в транспортно-транзитной сфере. Азербайджан поддерживает китайскую стратегию «Один пояс – один путь». Меморандум о взаимопонимании о совместном поощрении создания «Экономического пояса Шелкового пути», подписанный в ходе государственного визита Президента Азербайджанской Республики Ильхама Алиева в 2015 году в Китай, имеет важное значение в развитии сотрудничества в транспортно-транзитной сфере. В реализации инициативы «Один пояс- один путь» Китая большую роль играет Транскаспийский международный транспортный коридор. Использование потенциала этого коридора создает благоприятную почву для сотрудничества в области экономики, в частности, в сфере инвестирования, торговли, транзита», - подчеркнул министр Шахин Мустафаев. Министр экономики проинформировал о конкурентоспособности и преимуществах Транскаспийского международного транспортного коридора, предложил создать рабочую группу по координированию связей между двумя странами в области транспорта. Было сообщено о возможном проведении в Баку мероприятия, связанного с поощрением Транскаспийского международного транспортного коридора с участием Китая, Турции, Казахстана и Грузии.
Руководитель «Китайских железных дорог» Лу Донгфу подчеркнул всестороннее развитие за последние годы Азербайджана, расположенного на Шелковом пути, отметил расширение связей с нашей страной в рамках стратегии «Один пояс – один путь». Напомнив об успешной презентации в начале текущего года в Пекине и Сиане Транскаспийского транспортного коридора Азербайджана, Лу Донгфу поделился мнениями о расширении сотрудничества в транспортно-транзитной области, с одобрением встретил предложение о создании рабочей группы с целью координирования связей в области транспорта.
На встрече с азербайджанской стороны присутствовали председатель ЗАО «Азербайджанские железные дороги» Джавид Гурбанов, председатель ЗАО «Азербайджанское Каспийское морское пароходство» Рауф Велиев, посол Азербайджана в Китае Акрам Зейналлы и др.
На встрече министра экономики Шахина Мустафаева с вице-президентом Китайской национальной корпорации электроинжиниринга (CNEEC) Ченгом Ченгчуном состоялся обмен мнениями о деятельности корпорации в нашей стране и возможностях развития сотрудничества. Отметив, что в Азербайджане функционируют более 100 китайских компаний в области промышленности, строительства, торговли, услуг и др., Шахин Мустафаев отметил, что CNEEC также имеет опыт работы в Азербайджане, принимает участие в реализации различных проектов, сказал, что Азербайджан заинтересован в расширении сотрудничества с CNEEC.
Вице-президент CNEEC Ченг Ченгчун выразил удовлетворение сотрудничеством корпорации с Азербайджаном и подчеркнул, что корпорация принимает участие в реализации ряда проектов в нашей стране, довел до внимания, что CNEEC заинтересован в сотрудничестве с Азербайджаном в области производства автомобильных шин в нашей стране.

# Азербайджан рассчитывает ежегодно экономить около 400 млн кубометров газа



Производство электроэнергии в Азербайджане в среднесрочной перспективе за счет использования альтернативных источников энергии может составить 1,6 млрд Квт/ч в год, заявил руководитель аппарата министерства энергетики Заур Мамедов.
«Ввод в ближайшие годы в строй 420 МВт энергетических мощностей за счет возобновляемых источников энергии позволит ежегодно экономить 390 млн кубометров природного газа. Производство же электроэнергии за счет ветра и биоустановок составит 1.6 млрд Квт/ч в год», - сказал З.Мамедов в ходе семинара, посвященного реализации пилотного проекта «Техническая поддержка и обмен знаниями по развитию системы плавающих солнечных панелей».
Проект «Техническая поддержка и обмен знаниями по развитию системы плавающих солнечных панелей» предусматривает создание системы из трех фотовольтаических панелей мощностью 100 кВт каждая на озере Беюк-шор в Баку. Проект реализуется совместно с Азиатским банком развития.

# TİCARƏT ŞƏBƏKƏSİNDƏ ZAHİRİ REKLAM



Müasir mağazanın (marketin, ticarət şəbəkəsinin və s.) reklamı aşağıdakı əsas növlədən ibarətdir: alıcının cəlb edildiyi mağazanın özünün reklamından və orada satılan malların reklamından. Bu reklam növləri bir-biri ilə sıx bağlıdır və heç də həmişə onları dəqiq bölmək, yaxud ayırmaq olmaz.

Mağazanın və orada olan malların reklamı həm onun xaricində, həm də daxilində həyata keçirilir. Xarici mağaza reklamı vasitələrinə plakatlarla və afişalarla olan xarici lövhələr, mağaza lövhələri, mağazanın xarici tərtibatı, xarici vitrinlər daxildir. Mağazanın əsas daxili reklam vasitələrinə ticarət zalının interyeri, ticarət müəssisələrinin daxilində malların göstərilməsi və reklam göstəriciləri, plakatları və afişaları, eləcə də reklam tədbirləri, yeni ərzaq mallarının dequstasiyası və s. aiddir.

Hazırda çoxsaylı mağazalar yaradılır ki, onlar üçün burada magistral yolların və ictimai nəqliyyat dayanacaqlarının kənarlarında, döngələrdə, məhəllələrin dərinliklərində, bəzən isə zirzəmilərdə yerlər ayrılır.

Mağazalar üçün, xüsusilə onların işinin başlanğıc vaxtında reklam vasitələri ilə potensial alıcıların diqqətinin özünə cəlb edilməsi vacibdir. Bu məqsədlə insanların daim toplaşdığı yaxın yerlərdə, yol ayrıclarında, magistral yollarda mağaza haqqında əhalini məlumatlandıran reklam plakatları və afişalar yerləşdirilir (yerli hakimiyyət orqanlarının razılığı ilə müəyyən ödəniş etməklə). Plakatlar kağız, qalın kətan, fanar üzərində yazılarla, qısa mətnlərlə yerinə yetirilən təsvirlərdir, afişalar isə yalnız reklam mətnlərini ehtiva edir.

Lövhələr üzərində yerləşdirilən plakatlar və afişalar, eyni zamanda, həm sadə olmalı, həm də nəzəri cəlb etməlidir. Küçədə yerləşən afişaların mətnləri qısa, şrifti kifayət qədər iri, hərf və rəng tonu təzadlı olmalıdır.

Rəng həlləri müxtəlif ola bilər. Rənglərin aşağıdakı kimi: sarı və ya ağla qaranın, ağla və ya yaşılla qırmızının, ağla yaşılın uyğunlaşdırılması tövsiyə olunur. İşığı əks etdirən və qaranlıqda işıq saçan müxtəlif rənglərin lüminessent (soyuq işıqlanma) boyalarından istifadə oluna bilər.

Bədii tərtibat üsullarına görə küçə plakatları fotoqrafiyaların köməyilə çəkilmiş şəkil formasında, eləcə də fotoqrafiyalardan və şəkillərdən ibarət kompozisiya kimi ola bilər.

Konstruksiyasına görə reklam lövhələri yastı (düz, səthi) və həcmli olur. Yastı (düz, səthi) lövhələr fanerlə və ya təbəqə dəmirlə tikilir (haşiyə vurulur). Bəzən üzərində parça ilə çəkilmiş çərçivədən istifadə olunur. Həcmli lövhələr prizmalar, kublar və digər çoxüzlülər kimi təsvir olunur. Belə lövhələr fırlanan halda olur. Onlar mağazanın girişində yerləşir. Belə lövhələrin qurulmasında məqsəd yoldan keçənlərdə mağazaya gəlmək və malı almaq arzusu doğurmaqdır.

Satılan malların çeşidinin qısa şəkildə göstərilməsi, yeni malların dequstasiyası, satılıb qurtarma və s. haqqında elanlar potensial alıcıların diqqətini cəlb edir. Bəzən isə onları birləşdirərək, çadır (koma) şəklində səkidə yerləşdirirlər. Mətni iki tərəfdə lövhələrdə elə yerləşdirilər ki, mağazanın fasad (ön), yan, eləcə də əks tərəfindən keçənlər onu görə bilsinlər. Belə stasionar və daşınan lövhələr ixtisaslaşmış mağazalar (ehtiyat hissələri, təsərrüfat malları və s.) üçün daha səmərəlidir.

Beləliklə, küçə lövhələrində yerləşən reklam diqqəti cəlb etməli, qısa, anlaşıqlı, gediş zamanı asan oxunan olmalıdır. Diqqəti ona yetirmək lazımdır ki, çiskinli, tutqun, yağışlı havada küçə lövhələrində plakatlar və afişalar necə qəbul olunur, avtomobillər, ağaclar, kollar və s. onların görünməsinə mane olurmu?

Transparantlar reklamın müvəqqəti vasitəsidir. Onları mağazaya girişin üzərində, yaxud reklam kampaniyalarının, satış-yarmarkalarının keçirilməsi zamanı və ya yeni mağazanın açılışı ilə əlaqədar küçə dirəklərində yerləşdirilər. Mağazaya gəlmək müraciəti ilə mətnin yerləşdirildiyi transparant canlı boyalarla görünməlidir. Bu məqsədlə, bir qayda olaraq, ağ, sarı və ya qırmızı rənglərdən istifadə olunur ki, onların fonunda hərflər daha parlaq görünür.

Reklam xəbərləri mətnlərinin bir neçə tipi mövcuddur: informasiya, xatırladıcı, təlqinedici və inandırıcı. İnformasiya xarakterli mətnlər sadə və lakonik, xatırladıcı mətnlər qısa olmalı, təlqinedici mətnlər malın adının çoxsaylı təkrar olunmasını ehtiva etməlidir. İnandırıcı mətnlər emosional və həyəcanlı formada malın məsuliyyətinə diqqəti cəmləşdirir.

İstər lövhələrdə, istərsə də vərəqlərdə yerləşdirilən reklam elanlarının əsas elementləri mətn və təsvirdir ki, bunların vasitəsilə reklam müəyyən ideyanı və informasiyanı insana çatdırır. Mətn cümlənin mahiyyətini izah edir, təsvir isə heç bir halda onun məzmununu təkrar etməyərək, onu müşahidə üsulu ilə zənginləşdirir. Reklam elanlarının elementlərinə reklama emosional rəng qatan, onun təsirini gücləndirən şrift və rəng də aiddir. Reklam lövhələrində ayrı-ayrı və ya bütünlükdə götürülən elementlərdən istifadə oluna bilər.

(ardı var)

**F.M.Qarayev,**
**BDU-nun dosenti**







# KİVDF jurnalistlər arasında yeni müsabiqə elan edir

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu ilə birlikdə 3 dekabr - Beynəlxalq Əlillər günü ilə əlaqədar fərdi jurnalist yazıları müsabiqəsi elan edir. Müsabiqənin məqsədi Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin mühüm tərkib hissəsi kimi, ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının təminatı, onların sosial müdafiəsi, tibbi-sosial reabilitasiyası və cəmiyyətə fəal inteqrasiyası istiqamətində aparılan işlər barədə geniş ictimai məlumatlandırmanın təmin olunmasında, bu təbəqədən olan şəxslərin ictimai həyatda bərabərhüquqlu iştirakının genişləndirilməsinə, bacarıqlarının, məşğulluq imkanlarının dəstəklənməsinə cəmiyyətin diqqətinin artırılmasında, fiziki məhdudiyyətli insanların bir çox hallarda “məhdudiyyətsiz” imkanlarının tanıdılmasında peşəkar jurnalist əməyinin stimullaşdırılmasıdır. Müsabiqənin mövzusu “Əlilliyi olan şəxslər: fiziki məhdudiyyətdən sosial inteqrasiyaya” kimi müəyyənləşdirilmişdir. Müsabiqədə iştirak, təqdim olunan yazılara aid tələblər, yazıların qəbulu qaydaları, tələb olunan sənədlər, qiymətləndirmə və mükafatlandırma haqqında daha ətraflı məlumatla http://kivdf.gov.az/news/430/.../ linki vasitəsilə tanış ola bilərsiniz.

# Azərbaycanın turizm potensialının Bolqarıstanda təbliği davam etdirilir

Ölkəmizin turizm potensialı və mədəniyyəti Bolqarıstanın Varna şəhərində keçirilən Qara Dəniz Turizm Forumunda geniş təbliğ edilib.

AZƏRTAC xəbər verir ki, Bolqarıstanın Turizm Nazirliyi, Varna Bələdiyyəsi və Varna Turizm Palatasının təşkilatçılığı ilə təşkil olunan “Qara dəniz – davamlı yerli və transmilli turizm məhsullarının məskəni” adlı forumda Azərbaycan milli stendlə təmsil olunub. Ölkəmizlə yanaşı, tədbirə Bolqarıstanın 14 bələdiyyəsi, 2 ali təhsil ocağı və bir sıra xarici ölkə qoşulub.

Forum çərçivəsində Azərbaycanın Bolqarıstandakı səfirliyinin təşkilatçılığı ilə ölkəmizin turizm potensialı haqqında təqdimat keçirilib. Təqdimat zamanı Azərbaycanın tarixi, mədəniyyəti, təbiəti, adət-ənənələri, mətbəxi, keçirilmiş mötəbər beynəlxalq tədbirlər haqqında bəhs edilib, ölkəmizin turizm infrastrukturu, mövcud turizm marşrutları və turistlər üçün yaradılmış şərait barədə tədbir iştirakçılarına məlumat verilib. Ölkə stendi Azərbaycan xalçaları və sənətkarlıq nümunələri ilə bəzədilib, ölkəmizin mədəni turizm potensialını əks etdirən broşürlər və suvenirlər tədbir iştirakçılarına paylanılıb.

Tədbir zamanı, həmçinin Azərbaycanın istehsalı olan şərab, nar şirəsi və milli şirniyyatların təqdimatı keçirilib.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dİzayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500